## ABDULLA ŞAİQ — 120

Vaxtilə A.Şaiq, S.S.Axundov, S.M.Qənizadə, Həbib bəy Mahmudbəyov, Həmidə xanım Behbudova kimi gözəl insanlar dərs deyən, hal-hazırda Həbibbəy Mahmudbəyovun adını daşıyan texniki humanitar elmlər litseyində görkəmli edib və pedaqoq Abdulla Şaiqin 120 illik yubileyi təntənə ilə qeyd olundu.

Məktəbin akt zalında A.Şaiqin həyat və yaradıcılığını, müəllimlik fəaliyyətini əks etdirən fotosərgi təşkil edilmişdi. Məktəbin ədəbiyyat müəllimi, Ellada Ramazanova məclisi açaraq A.Şaiqin işığının nuruna toplaşan başda akademik Kamal Talıbzadəyə və bütün tədbir iştirakçılarına, gecənin təşkilində yaxından köməklik göstərən A.Şaiq mənzil muzeyinin əməkdaşları Arzu Tarverdiyevaya və Rauf Kərimovaya minnətdarlığını bildirdi.

Tədbirdə dil-ədəbiyyat müəllimi, Kəmalə Abbasova, "Həbib bəy Mahmudbəyov məktəbi" kitabının müəllifi Kamilə Məmmədova A.Şaiqin yaradıcılığı və çoxşaxəli fəaliyyəti, eləcə də H.Mahmudbəyov məktəbindəki müəllimlik fəaliyyəti barədə məruzə etdi.

A.Şaiqin "Tülkü həccə gedir", "Tıqtıq xanım", "Zəhmət və ziynət" əsərlərindən səhnəciklər, şerlərini söylədilər və şerlərinə yazılmış mahnıları ifa etdilər. Şagirdlər və ingilis dilini tədris edən Sürayyə müəllimə A.Şaiqin "Qərənfil", "Tülkü və dəvə", "Kür çayı" əsərlərinin tərcüməsini oxudular.

Məclisin sonunda yubilyarın oğlu akademik Kamal Talıbzadə atasına göstərilən diqqət və qayğıya görə bütün tədbir iştirakçılarına minntədarlığını bildirdi.

*A. Hacızadə*